BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№3 Sosial-siyasi elmlər seriyası 2015*

**UOT 341.2; 341.231.14**

# İNSAN HÜQUQ VƏ AZADLIQLARININ QORUNMASI İCTİMAİ İNKİŞAFIN ƏSAS ŞƏRTİ KİMİ

**D.M.QƏNBƏROV**
***Bakı Dövlət Universiteti***
***bsu_istuc@rambler.ru***

*Məqalədə cəmiyyətdə insan hüquq və azadlıqlarının qorunması rolu və əhəmiyyəti araşdırılır. İlk növbədə, qeyd olunur ki, demokratiya və insan hüquqlarının təminat mexanizmləri olmadan hər hansı bir cəmiyyətin və dövlətin davamlı inkişafı mümkünsüzdür. İnsanın əsas hüquq və azadlıqlarının tanınması müasir cəmiyyətlərin inkişafında əsas hərəkətverici qüvvədir. Qeyd olunur ki, insan hüquq və azadlıqlarının bugünkü vəziyyətə əsasən beynəlxalq hüquq зərзivəsində inkişaf edir. Bu onun göstəricisidir ki, artıq insan hüquqları problemi qlobal problemə cevrilibdir. İndiki mərhələdə hər hansi bir şəxsin hüququ beynəlxalq ictimaiyyətin himayəsi altındadır.*

*Eyni zamanda, məqalədə Azərbaycan Respublikasında insan hüquq və azadlığının qorunmasının müasir vəziyyətinə də toxunulur.*

**Açar sözlər:** hüquq, azadlıq, konstitusiya, cəmiyyət, dövlət

Ümumiyyətlə, insan hüquq və azadlıqları dünyanın bütün ölkələrində insan həyatının mükəmməlliyini müəyyənləşdirir. İnsanın əsas hüquqları millətin mədəni dəyərlərinin ayrılmaz hissəsi rolunda çıxış etməklə, bəşəriyyətin mənəvi-hüquqi ideallarının ali ifadəsi kimi qəbul olunur. İnsanın əsas hüquq və azadlıqlarının gözlənilmədiyi cəmiyyətlərdə həyati vacib təlabatların ifadə olunmasından və şəxsiyyətin inkişaf imkanlarının mövcudluğundan danışmaq üçün əsas olmaz. Hazırda istənilən cəmiyyətin və dövlətin inkişafını demokratiyasız və insan hüquqları gözlənilmədən təsvvür etmək qeyri-mümkündür. Müasir dünyada insan hüquqları insanların və cəmiyyətin birliyinin əsas kriteriyası rolunda çıxış edir [5, 104].

Bu baxımdan, müasir sivil cəmiyyətlərdə bütün fəaliyyət sahələrində və formalarında insanın əsas hüquq və azadlıqlarının gözlənilməsi məsələsi diqqət mərkəzində olur. Belə cəmiyyətlərin inkişaf dialektikasının əsasında məhz insanın əsas hüquq və azadlıqları dayanır. İnsan hüquqlarının təşəkkül tapması və inkişafı sivilizasiyanın tipini, inkişaf mərhələsini səciyyələndirir. Təbii ki, bunun obyektiv səbəbini müəyyənləşdirmək зətin deyildir. Belə ki, insan və dövlət arasındakı münasibət bu və ya digər sivilizasiyanın təbiətini müəy-

yənləşdirən mühüm əlamət rolunda çıxış edir. İnsan və dövlət arasındakı münasibətlər ən əsası, həm də dövlətin hüquqi və qeyri-hüquqi olduğunu müəyyənləşdirir. İnsanın hüquq və azadlıqlarının qorunması, sözsüz ki, insan-dövlət münasibətlərində öz ifadəsini tapır. Yəni insanla dövlət arasındakı münasibətlərin xarakterinə əsasən cəmiyyətdə əsas insan hüquq və azadlıqlarının qorunub-qorunmaması müəyyənləşir. Aydındır ki, insan hüquq və azadlıqlarının qorunduğu dövlətlər hüquqi dövlət kimi səciyyələndirilir. Məhz bu baxımdan, hesab olunur ki, insan-dövlət münasibətlərinin xarakteri dövlətin xüsusiyyətini müəyyənləşdirir.

Ən sadə formada hüququn təbiəti izah olunarkən, o, kiməsə fəaliyyət göstərmək və nədənsə istifadə etmək azadlığının verilməsi kimi səciyyələndirilir. Bunu insan hüququnun mahiyyətini açan universal yanaşma kimi də nəzərdən keçirmək mümkündür. İnsanın özünün bu və ya digər hüququndan digərlərinin hüquqlarının reallaşdırılmasına mane olmayacaq səviyyədə istifadə edir. Buradan belə qənaətə gəlmək olur ki, insan hüquqları fərdin həyatını, ləyaqətini və ictimai həyatın bütün sahələrində fəaliyyət azadlığını təmin edən təbii imkanlarıdır.

Təbii hüquq dedikdə, insana anadangəlmə mənsub olan və insan həyatından ayrılmaz olan hüquqlar nəzərdə tutulur. İnsan hüquqları vətəndaşlıq mənsubiyyətindən asılı olmayaraq, istisnasız dövlətdə yaşayan hər bir kəsə aiddir. Şəxsi, təbii hüquqlar elə bu kateqoriyadan olan hüquqlardır. Müəyyən hüquq və azadlıqlarının reallaşdırması ilə yanaşı, insan həmçinin qanunla təsbit olunmuş öhdəliklərini də gözləməlidir. Məhz bu öhdəliklər hüquqi tənzimləmənin balansını, dayanıqlığını və dinamizmini təmin edir. Beləliklə, insanın hüquq və azadlıqlarının gözlənilməsi səviyyəsi, bütövlükdə, cəmiyyətin və dövlətin xarakterini açırsa, onun qanunla müəyyənləşdirilmiş öhdəlikləri isə cəmiyyətin inkişafının vacib şərti rolunda çıxış edir. İnsan-dövlət münasibətlərinin xarakteri, cəmiyyətin inkişaf dinamizmi insanın əsas hüquq və azadlıqlarının və öhtəliklərinin reallaşdırılması səviyyəsini müəyyənləşdirir.

Beləliklə, bəşər sivilizasiyasının inkişafının hər bir mərhələsində insanın təbii tələbatlarının nəzərə alınması ilə beynəlxalq və milli qanunvericilik aktlarında insanın və vətəndaşın hüquq və azadlıqları təsbit olunmuşdur. Müasir cəmiyyətlərdə əsas hüquqları və azadlıqlarının gözlənilməsi səviyyəsi cəmiyyətin xarakterini açan əsas göstərici kimi qəbul olunur. Hər bir dövrdə olduğu kimi, müasir dövrümüzdə də insanın əsas hüquq və azadlıqları müəyyən amillərin təsirinə məruz qalır. Məqalədə müasir dünyada insan hüquq və azadlıqları sahəsindəki vəziyyət və ona təsir edən amillər ətrafında təhlillər aparılır.

Müasir dünyamızda insan hüquqlarının ümumbəşəri mədəniyyətinin aparıcı sütununu təşkil etdiyi şübhəsizdir. Dünya dövlətlərinin konstitusiyalarında əsas insan və vətəndaş hüquq və azadlıqları dəqiqliklə ifadə olunmuşdur. Azərbaycan Respublikası Konstitusiyasının üçüncü fəsli "Əsas insan və vətəndaş hüquqları və azadlıqları" adlanır. Azərbaycan Konstitusiyasının

24-cü maddəsinin birinci və ikinci bəndlərində qeyd edilir [1]: "I. Hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır. II. Hüquqlar və azadlıqlar hər kəsin cəmiyyət və başqa şəxslər qarşısında məsuliyyətini və vəzifələrini də əhatə edir." Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsində isə insan və vətəndaşların hüquq və azadlıqlarının təmin olunması dövlətin ali vəzifəsi kimi ifadə olunmuşdur. Ölkə Konstitusiyasının 25-ci maddəsinin üçüncü bəndində isə göstərilmişdir: "Dövlət irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır" [1]. Bu məqam ondan xəbər verir ki, Azərbaycan Respublikasında demokratik inkişaf və hüquqi dövlət quruculuğu məhz insan və vətəndaşın hüquq və azadlıqlarının dəqiqliklə gözlənilməsi prinsiplərinə əsaslanır. Azərbaycan Respublikası Konstitusiyasının 24-cü maddəsindən 72-ci maddəsinədək insan hüquq və azadlıqlarından bəhs olunması da qeyd etdiyimiz məqamı bir daha təsdiq edir. İnsan hüquq və azadlıqlarının qorunması heç də bütün dövlətlərin konstitusion norma-məqsədi kimi müəyyənləşdirilmir. Müasir demokratik inkişafın və hüquqi dövlət quruculuğunun yüksək inkişaf səviyyəsinə çatmış ölkələrdə insanın və vətəndaşın hüquq və azadlıqlarının qorunması dövlətin ali məqsədi kimi müəyyənləşdirilir.

Ümumiyyətlə, qeyd edək ki, beynəlxalq təcrübədə hüququn üç qrupunun müəyyənləşdirilməsi mövcuddur. Buraya aşağıdakılar aiddirlər [10]:

-şəxsi;

-siyasi;

-iqtisadi.

Sosial mənşəyindən və cəmiyyətdəki statusundan və ya mövqeyindən asılı olmayaraq hər bir insan təbii bərabər hüquqların daşıyıcısıdır. Yuxarıda Azərbaycan Konstitusiyasından göstərdiyimiz istinadda da göründüyü kimi, insan hüquqlarının qəbul olunması, gözlənilməsi və qorunması dövlətin vacib vəzifəsidir. Dövlətdə insanın hüquq və azadlıqlarının tanınması o deməkdir ki, şəxsiyyət özünün dövlətlə qarşılıqlı münasibətlərində dövlət fəaliyyətinin obyekti deyil, öz konstitusion hüquqlarını reallaşdıran bərabərhüquqlu subyekt rolunda çıxış edir. Müasir demokratik inkişaf yolunu tutmuş ölkələrdə heç kəs özünün insani ləyaqətinin və ona əsaslanan hüquqlarının qorunmasının hüquqi vasitələrindən məhrum edilə bilməz. Müasir mərhələdə dövlət insanın hüquq və azadlıqları sahəsinə müdaxilə etməkdən çəkinməklə kifayətlənməyərək, həm də bu hüquq və azadlıqların reallaşdırılması üçün zəruri şəraitin yaradılması istiqamətində fəallıq nümayiş etdirir.

Tarixə nəzər salsaq, görərik ki, ictimai inkişafı şərtləndirən ən həlledici amillərdən biri məhz insan hüquqları ideyası olmuşdur [4, 134]. Bu tendensiya lap qədim zamanlardan başlamış və tarixi inkişafın bütün mərhələlərində aydın

müşahidə olunmuşdur. Müasir mərhələdə insan hüquq və azadlıqlarının tanınması, gözlənilməsi və qorunması dövlətlərin, cəmiyyətlərin inkişafının əsas istinad nöqtəsini təşkil edir. Bütün demokratik dövlətlərin konstitusiyalarının əsas prinsipləri qəbul olunması, qlobal sülhün və təhlükəsizliyin təmin olunması istiqamətində qəbul olunmuş, demək olar ki, bütün sənədlərin əsas məzmununun insan hüquq və azadlıqları ilə birbaşa bağlı olması da bir daha sübut edir ki, müasir cəmiyyətlərin inkişaf dialektikası məhz bu məqamla əlaqəlidir. Lakin buna baxmayaraq, qeyd etmək lazımdır ki, istənilən fəaliyyətin konseptual əsaslarının və ya prinsiplərinin insanın əsas hüquq və azadlıqları ilə bağlı hələ onların təmin olunması demək deyildir. Təsadüfi deyildir ki, müasir mərhələdə insan hüquq və azadlıqlarının tanındığı, onların qorunması mexanizmlərinin dəqiq işlədiyi ölkələrlə yanaşı, fəaliyyətində insan hüquq və azadlıqları prinsiplərinə istinad etdiyini yalnız deklorativ nümayiş etdirən dövlətlər də çoxluq təşkil edir. Təsadüfi deyildir ki, belə dövlətlərdə cəmiyyətdəki əsas narazılıqlar elə insanın əsas hüquq və azadlıqlarının lazımi səviyyədə qəbul olunmaması və qorunmaması ilə bağlı olur. Diqqət yetirsək asanlıqla müəyyənləşidrmək mümkündür ki, belə cəmiyyətlərdə inkişaf da uyğun olaraq səthi xarakter daşıyır. İnsan hüquq və azadlıqlarının hazırkı səviyyəsi cəmiyyətlərin inkişafının məhz onun əsasında təmin olunmasını tələb edir. Yalnız belə olan halda cəmiyyət üzvləri ilə dövlət arasında konstruktiv dialoq baş tutur və dövlətin ümumi tərəqqisi üçün əlverişli şərait təmin olunmuş olur. Bütövlükdə bəşər sivilizasiyasının mövcudluğu və inkişafı üçün insan hüquq və azadlıqlarının tanınması və qorunması ən vacib şərt kimi qəbul olunmaqdadır. Xüsusilə də, İkinci dünya müharibəsinin acı nəticələri bu məsələnin diqqət mərkəzində saxlanılmasının vacibliyini aydın şəkildə göstərdi. Təsadüfi deyildir ki, Birləşmiş Millətlər Təşkilatının 1945-ci ildə qəbul olunmuş nizamnaməsində təşkilatın başlıca məqsədi qismində məhz insan hüquqlarının qorunması göstərilmişdir. Qəbul olunmuş BMT Nizamnaməsində tarixdə ilk dəfə olaraq dövlətlərin çoxtərəfli müqavilə əsasında insan hüquqları sahəsində əməkdaşlıq öhdəlikləri təsbit olunmuşdur. Bu sənəddə dövlətlərin insan hüquqları sahəsində əməkdaşlığının ümumi müddəaları yer almışdır [8, 24]. Göründüyü kimi, BMT Nizamnaməsinin ana sütununu insanın əsas hüquq və azadlıqlarının qorunması təşkil edir. Belə ki, BMT Nizamnaməsinin birinci maddəsində dövlətlərin qarşısında duran başlıca məqsəd iqtisadi, sosial, mədəni və humanitar xarakterli beynəlxalq problemlərin həlli və irqindən, cinsindən, dilindən və dinindən asılı olmayaraq, hamı üçün insan hüquq və əsas azadlıqlarının təşviq olunması və inkişaf etdirilməsi müəyyənləşdirilmişdir [7]. Birləşmiş Millətlər Təşkilatı Nizamnamədə ifadə olunmuş bu və ya digər ümumi məqsədlərə çatılması istiqamətində dövlətlərin fəaliyyətlərinin koordinasiyası mərkəzi kimi nəzərdən keçirilməkdədir. Sonrakı mərhələdə dövlətlərin səyləri insan hüquq və əsas azadlıqları sahəsində ümumi standartların işlənib hazırlanmasına yönəldilmişdir. Dünya dövlətləri bu standartları əldə rəhbər tutmaqla, özlərinin daxili qaydalarında və hüquq qaydalarında insan hüquq və azadlıqlarının göz-

lənilməsini təmin edirlər. BMT Nizamnaməsinin 55-ci maddəsində bu məqam dövlətlər arasında sülh və dostluq münasibətləri üçün zəruri olan stabilliyin və rifahın ən vacib şərtlərindəndir [5, 7].

BMT çərçivəsində insan hüquq və əsas azadlıqlarının tanınması, gözlənilməsi və qorunması istiqamətində həyata keçirilən ardıcıl fəaliyyət nəticəsində çoxsaylı hüquqi təlimat əhəmiyyətli aktlar, üzv dövlətlər tərəfindən yerinə yetirilməsi icbari olan müqavilə layihələri işlənib hazırlanmışdır. İlk belə akt nümunəsi isə 10 dekabr 1948-ci il tarixində BMT Baş Assambleyası tərəfindən qəbul olunmuş “Ümumdünya insan hüquqları bəyannaməsi” olmuşdur [7]. Həmin dövrdən başlayaraq günümüzədək 10 dekabr tarixi “İnsan hüquqları günü” kimi qeyd olunur. Qeyd edək ki, bu bəyannamə özündə bir sıra əsas insan hüquq və azadlıqlarını ifadə edir. Nizamnamənin preambulasında qeyd olunur ki, insan hüquq və azadlıqlarının xarakterinin ümumi dərki üzv dövlətlər tərəfindən insan hüquq və azadlıqlarına ümumi həssaslığın təmin olunması istiqamətində BMT Nizamnaməsində nəzərdə tutulmuş öhdəliklərin tam yerinə yetirilməsini şərtləndirir. Bunları qeyd etməklə yanaşı, vurğulamaq lazımdır ki, Ümumdünya insan hüquqları bəyannaməsində yalnız əsas hüquq və azadlıqlar haqqında bir növ xatırlatma mövcuddur. Yəni Bəyannamədə bu hüquq və azadlıqların reallaşdırılmasına nəzarət və onların məhdudlaşdırılması mexanizmləri nəzərdə tutulmamışdır. Belə nəticə çıxarmaq olar ki, BMT BA tərəfindən qəbul olunmuş insan hüquqları bəyannaməsi tövsiyə xarakterlidir. Lakin bu məqam Bəyannamənin siyasi-hüquqi çəkisini azaltmır. Belə ki, Bəyannamə ən azından insan hüquq və əsas azadlıqlarının tanınması, gözlənilməsi və qorunması istiqamətində işlərin aparılmasının əsasını qoymuşdur [9].

Müasir mərhələdə insan hüquq və azadlıqları sahəsində müəyyən səciyyəvi tendensiyası müşahidə olunmaqdadır. Bu tendensiya konkret amillərin təsiri altında gedir. Belə ki, dövlətlərin konstitusion inkişafı və dövlətlərarası inteqrasiyanın regional təcrübəsi ümumilikdə beynəlxalq hüququn təkminləşməsini, yeni institutların və hüquqi tənzimləmə sahələrinin universallaşmasını şərtləndirmişdir. Belə ki, müvafiq olaraq insan hüquq və azadlıqları milli hüquq müstəvisindən çıxaraq beynəlxalq hüquq çərçivəsinə daxil olmuşdur. Bunun da sayəsində milli və beynəlxalq hüquq biri-birilərini qarşılıqlı şəkildə zənginləşdirərək paralel inkişaf edirlər [6, 38]. İnsan hüquq və əsas azadlıqları ilə bağlı məsələlər getdikcə daha çox beynəlxalq hüquq çərçivəsində inkişaf etməkdədir. Təsadüfi deyildir ki, müasir konstitusiyalarda insan hüquq və azadlıqları haqqında beynəlxalq hüquqi aktların izi aydın hiss olunur. Bu kontekstdə beynəlxalq hüquqda insanın və vətəndaşın hüquq və azadlıqlarını müəyyən edən doktrina tətbiq olunur ki, bu da hamı tərəfindən tanınan inperativ normalara aid edilir. Qeyd etdiyimiz bu məqamlar hər şeydən öncə, insan hüquq və azadlıqlarının tanınması, gözlənilməsi və qorunması məsələsinin artıq qlobal xarakter kəsb etməsindən xəbər verir. Bundan başqa, burada milli hüquqa münasibətdə müəyyən prinsiplərin özünə ciddi yer etməsi tendensiyası da müşahidə olunmuşdur. Belə ki, daxili qanunvericilik beynəlxalq aktlarda təsbit

olunmuş əsas insan hüquq və azadlıqları ilə ziddiyyət təşkil edə bilməz. Deməli, insan hüquq və azadlıqları sahəsində beynəlxalq hüquq normalarının beynəlxalq hüquq normaları üzərində prioriteti prinsipi işləməkdədir [6, 40].

Yuxarıda nəzərdən keçirdiyimiz məqamlar aydın şəkildə sübut edir ki, insan hüquq və azadlıqlarının tanınması, gözlənilməsi və qorunması müasir mərhələdə cəmiyyətlərin inkişafının ən vacib şərti rolunda çıxış etməkdədir. Artıq qeyd etdiyimiz kimi, demokratik inkişaf yolunu tutmuş istənilən ölkədə cəmiyyətin idarə olunması məhz insan hüquq və azadlıqlarının qorunması prinsiplərinə əsaslanaraq həyata keçirilir. Həmçinin Azərbaycan Respublikasında beynəlxalq qanunvericilik aktlarının müvafiq müddəalarına istinad edilərək insan hüquq və azadlıqlarının qorunması sahəsində ciddi addımlar atılmaqdadır. Bu addımlar xarakter etibarı ilə həm normativ hüquqi bazanın zənginləşdirilməsindən, həm də dövlət tənzimlənməsindən ibarətdir. Azərbaycan Respublikasının Konstitusiyasına nəzər salsaq, onun təxmini 1/3 hissəsinin insan və vətəndaş hüquq və azadlıqlarına həsr olunduğunun şahidi olarıq. Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunmuş müddəalardan başqa, insan hüquq və azadlıqlarının gözlənilməsi sahəsində digər qanunlar və qanunqüvvəli aktlar da qəbul olunmuşdur [4, 137]. Qeyd edək ki, 2002-ci ilin avqustunda Azərbaycan Respublikasının Konstitusiyasına referendum yolu ilə edilmiş əlavə və dəyişikliklərin böyük əksəriyyəti də insan hüquq və azadlıqlarının qorunması ilə bağlı olmuşdur. İnsan hüquq və azadlıqlarının qorunmasının real mexanizmlərinin tətbiq olunması diqqət mərkəzində olmuşdur. Məsələn, bununla bağlı ən önəmili məqam, vətəndaşlara pozulmuş hüquq və azadlıqlarının bərpa olunması üçün Konstitusiya Məhkəməsinə müraciət etmək hüququnun verilməsi ilə bağlı olmuşdur [3, 63]. "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında Azərbaycan Respublikasinin Konstitusiya qanunu"nun beşinci maddəsində təsbit olunmuşdur: "Hər kəs onun hüquqlarını və azadlıqlarını pozan və Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-6-cı və 8-ci bəndlərində nəzərdə tutulan qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının normativ qərarlarından və bələdiyyələrin normativ aktlarından qanunla müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə pozulmuş hüquq və azadlıqlarına dair şikayət verə bilər" [2]. Göründüyü kimi, digər dünya dövlətlərində olduğu kimi, Azərbaycan Respublikasında da insan hüquq və azadlıqlarının qorunması hərtərəfli inkişafının əsas hərəkətverici gücü olması ideyası qəbul olur. Bu baxımdan, insan hüquq və azadlıqlarının qorunmasının işlək mexanizmlərinin yaradılması və təkmilləşdirilməsi ciddi diqqət mərkəzindədir.

İnsan hüquq və azadlıqlarının qorunması məsələsi demokratik inkişaf yolunu tutmuş bütün dövlətlərin fəaliyyətinin prioritet istiqamətini təşkil edir. Müasir cəmiyyətlərin stabil inkişafını məhz insan hüquq və azadlıqlarının tanınması, gözlənilməsi və qorunması şərtləndirir. Müasir dövrümüzdə bu sahədə müşahidə olunan başlıca tendensiya ondan ibarətdir ki, insan hüquq və

azadlıqları artıq milli hüquq çərçivəsindən çıxaraq beynəlxalq hüquq müstəvisində nəzərdən keçirilməkdədir. Bu da ondan xəbər verir ki, insan hüquq və azadlıqlarının qorunması yalnız ayrı-ayrı dövlətlərin daxili işi olmayıb, artıq qlobal problem kimi qəbul olunur. Təsadüfi deyildir ki, BMT Nizamnaməsində insan hüquq və azadlıqlarının qorunması sahəsində üzv dövlətlər üçün öhdəliklər müəyyənləşdirilmişdir. Müasir mərhələdə insan hüquq və azadlıqlarının qorunması bəşər sivilizasiyasının inkişafının vacib şərti rolunda çıxış etməkdədir.

**ƏDƏBİYYAT**


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Milli Məclisin nəşri, 1995, 65 s.
2. "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında Azərbaycan Respublikasinin Konstitusiya qanunu". Bakı ş., 24 dekabr 2002-ci il
3. Xəlilov Y.F. Azərbaycan Respublikası Konstitusiyasına dair 555 sual – 555 cavab. Bakı: Qanun, 2008, 93 s.
4. Xəlilov Y.F. Azərbaycan Respublikası Konstitusiyasının preambulası və ümumi müddəalarının şərhi. Bakı, Qanun, 2007, 248 s.
5. Абилов А. Права человека в международном праве и конституционном праве стран-членов СНГ (на примере конституции Азербайджанской Республики). Баку: Элм, 1999, 116 с.
6. Алферова Е.В. Современное конституционное право: Сб. науч. тр. / РАН. ИНИОН. Центр социал. науч.-информ. исслед. Отдел правоведения. М.: ИНИОН, 2010, 210 с.
7. Всеобщая декларация прав человека. Принята резолюцией 217 A (III) Генеральной Ассамблеи ООН от 10 декабря 1948 года // http://www.un.org/ru/documents/decl_conv/declarations/declhr.shtml
8. 
9. http://www.bibliotekar.ru/mezhdunarodnoe-pravo-1/64.htm
10. http://www.e-reading.club/chapter.php/98170/20/Nekrasov_-_Konstitucionnoe_pravo_Rossiiskoii_Federacii__konspekt_lekciii.html


## ЗАЩИТА ПРАВ И СВОБОД ЧЕЛОВЕКА КАК ВАЖНОЕ УСЛОВИЕ ОБЩЕСТВЕННОГО РАЗВИТИЯ


**Д.М.ГАНБАРОВ**


**РЕЗЮМЕ**


В представленной научной статье рассматривается место и роль соблюдения и защиты прав и свобод человека в обществе. Прежде всего, обосновывается, что развитие любого общества и государства без демократии и соблюдения прав человека невозможно. Признание и защита основных прав и свобод человека является главной движущей силой развития современных обществ. Отмечается, что сегодня положения о правах и свободах человека, в основном, развивается в рамках международного права. Это означает, что проблема прав человека приобрела глобальный характер. То есть на современном этапе права любого человека находятся под защитой мирового сообщества.

В научной статье внимание также обращается на состояние защиты прав и свобод человека в Азербайджанской Республике.



**Ключевые слова:** право, свобода, конституция, общество, государство.

**PROTECTION OF THE RIGHTS AND FREEDOMS OF THE PERSON AS AN IMPORTANT CONDITION OF SOCIAL DEVELOPMENT**

**D.M.GANBAROV**

**SUMMARY**

The article studies the place and the role of observance and protection of the rights and freedoms of the person in society. It is noted that development of any society and state without democracy and observance of human rights are imposible. Recognition and protection of basic rights and freedoms of the person is the main driving force of the development of modern societies. It is noted that, today, regulations on the rights and freedoms generally develop within international law. It means that the issue of human rights has gained a global character. That is, at the present stage, the rights of any person are protected.

In the scientific article, the attention is also paid to the state of the protection of the rights and freedoms in the Azerbaijan Republic.

**Key words:** right, freedom, constitution, society, state.